**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏLƏKBƏROV RÖVŞƏN ELMİDAR oğlu**

# MÜASİR ŞƏRAİTDƏ KOOPERASİYANIN TƏŞKİLATİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**5308.01 – «Ümumi iqtisadiyyat»**

iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı - 2017**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi<br>**Əli Qəmbərəli oğlu Əlirzayev** |
| **Rəsmi opponentlər:** | texnika elmləri doktoru<br>**Həsən Abid oğlu İsrafilov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Habil Hüseyn oğlu Aslanov** |
| **Aparıcı Təşkilat:** | **Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu** |

Müdafiə "___" ______________ 2017-ci il tarixdə saat _____-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ______________ 2017-ci ildə göndərilmişdir.

**FD. 02.018 birləşdirilmiş dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d.** **H.S.Şamilova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycanda iqtisadiyyatın aqrar sektorunda bazar münasibətlərinin təşəkkülü, onun mühitinin dəyişməsi müxtəlif təşkilati formalarda kənd təsərrüfatı kooperasiyasının inkişafı üçün yeni imkanlar açır, kooperasiyanın inkişaf problemlərini ön cərgəyə çəkir, onun ölkə iqtisadiyyatında əhəmiyyətini göstərir. Bu dəyişən tələbata tez və tam uyğun cavab verməyə, kənd təsərrüfatının ehtiyatlarından daha yaxşı istifadə etməyə, məhsulun keyfiyyətinə, çeşidinə və qiymətinə göstərilən sərt bazar tələbləri arasındakı ziddiyyətləri aradan qaldırmağa, innovativlik üçün əlavə vəsait axtarmağa imkan verir.

Lakin əvvəllər aqrar sahənin dəyişikliklərində yol verilmiş səhvlər, istehsal və sosial infrastrukturun dəyişməsi kooperasiyanın inkişafını ləngitmiş, onun sabitliyinə təsir göstərmişdir. Bu hallar kooperasiyalaşmanın inkişafının təşkilati mexanizminin təkmilsizliyindən, kooperasiyalaşma proseslərinə göstərilən dəstəyin, həmçinin kooperasiyanın müxtəlif növlərinin, tiplərinin və formalarının təşəkkülü üçün metodiki işləmələrin kifayət qədər olmamasından irəli gəlir .

Azərbaycanda kənd təsərrüfatı təşkilatlarının, şəxsi yardımçı və kəndli (ailə) təsərrüfatlarının fəaliyyətinin sosial-iqtisadi şərtlərinin dəyişməsi, aqrar-ərzaq bazarlarının yenidən tənzimlənməsi və kənd təsərrüfatı istehsalının fərdiləşməsi ilə əlaqədar olduğundan ehtiyatların və malların texnoloji dövriyyəsində hərəkətlərin daha sıx əlaqələndirilməsini və iqtisadiyyatın aqrar sektorunun bütün iştirakçıları arasında həmrəyliyin artırılmasını tələb edir.

Həm tarixi təcrübə mövqeyindən, həm də kooperasiya nəzəriyyəsi baxımından kooperativlərin təşkili yalnız aqrar sektorda toplanmış özünə məxsus xüsusiyyətlər nəzərə alınmaqla, onların təşkilati quruluşu müasir bazar mühitinə uyğun gəldikdə müsbət nəticə verə bilər.

Azərbaycan Respublikasının aqrar sektorunun gələcək inkişafına dair tədbirlər sistemində şəxsi, ictimai və kollektiv maraqları birləşdirən və onun əsas sahəsi sayılan kənd təsərrüfatının daha da səmərəli fəaliyyəti üçün şərait yaradan kooperasiyanın inkişafının təşkilati-iqtisadi aspektləri mühüm yer tutur.

Lakin kooperasiyanın faktiki inkişaf vəziyyəti onun həlli tələb olunan çoxlu problemlərinin olduğunu göstərir. Bunların həll edilməməsi kooperasiyaya göstərilən zəif dəstəkdən irəli gəlməklə, kooperasiyalaşma prosesində kənd təsərrüfatı məhsulları istehsalçılarının kifayət qədər olmayan maraqlarının amili kimi çıxış edir.

Bazar dəyişikliklərin ilk illərində əksər iriləşdirilmiş kənd təsərrüfatı məhsulları istehsalçılarının dağılması və onların əsasında kənd təsərrüfatı

məhsullarının əsas istehsalçıları kimi çıxış edən çoxlu kiçik kəndli (ailə) və şəxsi təsərrüfatların əmələ gəlməsi sahənin səmərəliliyinin düşməsinə səbəb olmuşdur.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının regionlarında kənd təsərrüfatının gələcək inkişafı üçün milli və millətlərarası bazarlarda onların məhsullarının rəqabət qabiliyyətliyinin qaldırılmasına istiqamətlənən kooperasiyalaşma işlərində, kooperasiyanın daha təkmilləşmiş təşkilati mexanizmindən istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi maraqları təmin edilməlidir. Bu xüsusilə hazırda Avrasiya İqtisadi İttifaqın yaradılması şəraitində daha böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda aqrar sektorun inkişafı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə uğurla həyata keçirilən davamlı sosial iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. 27 fevral 2014-cü ildə onun fərmanı ilə «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı» Dövlət Proqramı, 06 dekabr 2016-cı ildə «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri», 14 iyul 2017-ci ildə «Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün» Dövlət Proqramı təsdiq edilmişdir. Sənədlərin icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur lahiyələrin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayacaqdır. Onunla müəyyən edilmiş kənd təsərrüfatının inkişaf parametrlərinin əldə edilməsi imkanını nəzərə alan, kənd təsərrüfatında kooperasiyanın təşkilati mexanizmlərinin inkişaf probleminin həllinin aktuallığı dissertasiya işinin mövzusunun seçilməsini müəyyən etmişdir.

Həmçinin Azərbaycanın aqrar sektorunda kooperasiyanın təşkilati mexanizminin inkişafının nəzəri və təcrübi məsələlərinin həllinin elmi cəhətdən əsaslandırılması tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

**Problemin öyrənilmə vəziyyəti.** Təsərrüfatçılığın kooperativ formalarının elmi əsasları, onun ayrı-ayrı seqmentlərinin, o cümlədən təşkilati-iqtisadi nexanizminin inkişaf etdirilməsi problemləri bir neçə nəsl ölkə və xarici alimlər tərəfindən araşdırılmış və öz həllini zaman-zaman tapmışdır.

Kooperasiyanın forma müxtəlifliklərinin artması ilə xarakterizə olunan müasir inteqrallaşma prosesləri, onun ayrı-ayrı seqmentlərinin inkişaf etdirilməsi problemləri ölkənin iqtisadçı alimləri A.A.Nadirovun, Z.Ə.Səmədzadənin, E.R.İbrahimovun, Ə.X.Nuriyevin, E.A.Quliyevin,

B.X.Ataşovun, İ.H.İbrahimovun, Ə.Q.Əlirzayevin, S.V.Salahovun, İ.H.Alıyevin, V.N.Abbasovun, A.İ.Məmmədovun, H.A.İsrafilovun, H.H.Aslanovun və başqalarının əsərlərində işıqlandırılmışdır.

Kooperasiyanın təşkilati prinsiplərinin nəzəriyyəsinin işlənib hazırlanmasına və formalaşmasına son bir neçə əsrdə Ş.Furye, R.Ouen, A.İ.Ançiferov, N.D.Kondratyev, F.Zassal, A.İ.Çelinçev, K.A.Pajitnov kimi alimlər və kooperasiya təcrübəçiləri töhvə vermişlər. Bu sahədə dəyərli elmi tədqiqatlar dünya alimləri, xüsusilə türk və rus iqtisadçı elm nəziyyəçiləri - H.Simon, Z.G.Mülayim, M.İ.Tuqan-Baranovski, M.İ.Çayanov, K.İ.Vaxitov, A.V.Tkaç və başqaları tərəfindən aparılmışdır.

Lakin iqtisadiyyatın aqrar sektorunda kooperasiyanın təşkilati mexanizminin təkmilləşdirilməsinə göstərilən yanaşmaların müxtəlifliyi sayəsində, kənd təsərrüfatında kooperasiyanın təşkilati formalarının inkişafı ilə bağlı bir çox aspektlər hələ də işlənməmiş qalaraq təcrübədə həllini tapmamışdır.

Təhlil göstərir ki, iqtisadiyyatın bazar strukturlarının inkişafı şəraitində kooperasiyanın üstünlüklərindən istifadə edilməsinin özünəməxsus yanaşmaları vardır.

Son illər ölkənin iqtisad elmində institusional təhlilin müxtəlif alətlərindən səmərəli istifadə edilməsinə baxmayaraq, kooperativlərin fəaliyyətinin öyrənilməsi çox vaxt ənənə yanaşmasına söykənmişdir. Buradan o qənaətə gəlmək olar ki, kooperativ təşkilatların fəaliyyətində qeyri-formal institutların təsiri yer almadığından bu tədqiqatları tam sistemli hesab etmək olmaz.

Kənd təsərrüfatı kooperativlərində mülkiyyətçilik hüququnun səmərəli strukturunun formalaşdırılması məsələləri, həmçinin onların toplanmış bazar mühitinə müvafiq strategiyasının və təşkilati modellərinin seçilməsi problemləri az öyrənilmiş kimi qalır.

Kooperasiya problemlərinin əsasverici nəzəri-metodoloji prinsiplərinin tədqiqi bir sıra alimlərin əsərlərində gətirilsə də, müasir şəraitdə aqrar sahənin inkişafı bazar münasibətləri əsasında həyata keçirildiyi bir vaxtda, kooperasiyanın inkişaf məsələləri yeni məzmun alır. Hazırda bunlar yuxarıda qeyd edildiyi kimi bir çox ölkə alimləri tərəfindən öyrənilməkdədir. Bununla yanaşı konkret olaraq regionlarda toplanmış şəraitə uyğun kooperasiyanın inkişaf problemləri kifayət qədər tədqiq edilməmiş qalmaqdadır.

Respublikanın subyektlərində iqtisadiyyatın aqrar sektorunun inkişafı təsərrüfatçılığın kooperativ formalarının yaradılması və onların fəaliyyətinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi xüsusi spesifik tövsiyələr tələb edir. Bütün bunlar tədqiqat mövzusunun istiqamətini təyin etmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın kənd təsərrüfatında kooperasiyanın təşkilinin nəzəri və metodoloji müddəalarını vermək, mövcud vəziyyətdə onun təşkilati mexanizmlərinin inkişaf meyllərini üzə çıxartmaq, kooperasiyanın təşkilati mexanizmlərinin təkmilləşdirilməsi sahəsində yeni elmi yanaşmaların və təcrübəvi tövsiyələrin işlənib hazırlanmasından və əsaslandırılmasından ibarət olmuşdur.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

• müasir şəraitdə kooperasiyanın təşkilinin nəzəri-metodoloji əsaslarını tədqiq etmək, inkişafının sosial-iqtisadi əhəmiyyətini müəyyənləşdirmək;

• kooperasiyanın təşkilinin və idarə edilməsinin müasir metodlarını vermək;

• kooperasiyanın təşkilinin dünya təcrübəsinin Azərbaycanın iqtisadiyyatında tətbiqinin elmi əsaslarını üzə çıxartmaq;

• sosial-iqtisadi inkişafın mövcud şəraitində kooperasiyanın təşkilinin sahə, ərazi və funksional formalarını qiymətləndirmək;

• aqrar sektorda struktur dəyişikliklərin kooperasiyanın inkişafına təsirini öyrənmək;

• kooperasiyanın təşkili mexanizmlərinin əsas amillərini və struktur siyasətini vermək;

• kooperasiyanın formalaşmasında dövlət siyasəti və qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində təkliflər işləyib hazırlamaq;

• kooperasiyanın təşkilində istehsal bölgü münasibətlərinin tənzimlənməsinin prinsiplərini və təmayüllərini əsaslandırmaq;

• kooperasiyanın təşkilati mexanizmlərinin təkmilləşdirilməsinin istiqamətlərini müəyyənləşdirmək;

• kooperasiya idarəçiliyinin bazar tipli modelinin formalaşdırılması üçün əsaslandırılmış təkliflər hazırlamaq.

**Tədqiqatın obyekti** kimi kənd təsərrüfatının istehsal və istehlak kooperativləri ilə təmsil olunan aqrar sektorun kooperasiya sistemi çıxış edir.

**Tədqiqatın predmetini** aqrar sektorda kəndin formalaşan kooperativ quruluşunda gedən iqtisadi münasibətlər, kooperasiyanın təşkilati mexanizmlərinin təkmilləşdirilməsi, onların dəyişməsinin qanunauyğunluqları ilə bağlı olan nəzəri, metodiki və təcrübi problemlərin tədqiqi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** kooperasiyanın inkişafı sahəsində ölkə müəlliflərinin, MDB-nin və dünyanın inkişaf etmiş ölkələrinin iqtisadçı alimlərinin işləri, dövrü mətbuat nəşrləri, kənd təsərrüfatı kooperativlərinin fəaliyyətinin təşkilati-iqtisadi mexanizmlərinin inkişafı

məsələlərinə həsr edilmiş beynəlxalq, milli konfransların və seminarların materialları təşkil etmişdir.

Tədqiqat işində sistemli, tarixi və məntiqi təhlil, müqayisə və ümumi ləşdirmə, iqtisadi-statistik metodlar, monoqrafik və analitik, həmçinin sistem-struktur və funksional prinsiplərdən istifadə edilmişdir. Abstraksiya metodunun köməyi ilə əsas anlayışların mahiyyəti nəzəri olaraq ümumiləşdirilmişdir.

Aparılmış tədqiqatın ümumi nəzəri əsasları və işlənib hazırlanmış mexanizmləri kooperasiyanın iqtisadi nəzəriyyəsinin fundamental müddəalarında bazalaşmaqla, Azərbaycanda və inkişaflı bazar iqtisadiyyatı olan ölkələrdə kooperativ fəaliyyəti reqlamentləşdirən hüquqi və normativ sənədlər dissertasiya işinin nəzəri əsasını təşkil edir.

**Tədqiqatın informasiya bazasını** dövlət orqanlarının sənədləri və materialları, qanunverici normativ aktları, Azərbaycan Respublikası Prezidentinin Fərmanları, Dövlət Proqramları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəmcamları, aqrar dəyişikliklərin və kooperasiya sisteminin problemləri üzrə Azərbaycan Respublikasının Dövlət Qərarları, informasiya-analitik və digər ədəbiyyatlar, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin göstəriciləri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun hesabatları və proqnozlaşdırma məlumatları, respublikanın regional orqanlarının rəsmi külliyyatları təşkil edir

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, burada:

• kooperasiyanın təşkilati mexanizminin nəzəri-metodoloji problemləri araşdırılır, onun sosial-iqtisadi məzmunu açıqlanır, inkişafının zəruriliyi, prinsipləri və xüsusiyyətləri müəyyənləşdirilir;

• kooperasiyanın təşkilinin və idarə edilməsinin müasir metodları, təşkilati strukturu və funksiyaları əsaslandırılır;

• kooperasiyanın təşkilinin dünya təcrübəsi və onun Azərbaycanın iqtisadiyyatında tətbiqinin mümkünlüyü göstərilir;

• Azərbaycanda kooperasiyanın mövcud vəziyyəti və təşkilati mexanizmlərinin inkişaf meylləri nəzərə alınaraq onun təşkilinin sahə, ərazi və funksional formaları elmi baxımdan qiymətləndirilir;

• aqrar sektorda stuktur dəyişikliklərin kooperasiyanın inkişafına təsir xüsusiyyətləri şərtləndirilir;

• kooperasiyanın inkişafına təsir edən təşkilati mexanizmlərin əsas amilləri dəqiqləşdirilir və struktur siyasəti verilir;

• ölkəmizdə kooperasiyanın səmərəli fəaliyyətinin onun təşkilati mexanizminin qurulmasından asılı olması təsdiqlənir;

• kənd təsərrüfatı kooperasiyasının formalaşmasında dövlət siyasətinin tərkibi açıqlanır, qanunvericilik bazasının təkmilləşdirilməsində kooperasiya sahəsində Dövlət Proqramının qəbulu, elmi-tədqiqat işlərinin genişləndirilməsi, informasiya məsləhət xidmətinin göstərilməsi, müqavilə münasibətlərinin tənzimlənməsinin perspektivliyi müəyyən edilir;

• kənd təsərrüfatı kooperasiyasının təşkilati mexanizmlərinin formalaşdırılmasına və inkişafına təkan vermək məqsədi ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əmlak pay haqlarının könüllü birləşməsi əsasında kooperasiya idarəçiliyinin bazar tipli iri kənd təsərrüfatı müəssisələrinin (istehsal, istehlak, qarışıq), həmçinin fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə ittifaqlarının yaradılmasının elmi əsasları verilir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın əsas müddəalarının müxtəlif səviyyəli hökumət orqanları tərəfindən kənd təsərrüfatında kooperasiya siyasətinin təkmilləşdirilməsi üçün istifadə edilməsinin məqsədə uyğunluğundadır. Respublikanın Cənub Regionunda istehsal və istehlak kooperasiyasının inkişafına dair müəllif tərəfindən hazırlanmış tövsiyələr ölkənin oxşar iqtisadi şəraitə uyğun gələn digər regionlarında, həmçinin tərəvəzçilikdə, heyvandarlıqda və s. iqtisadi qarşılıqlı münasibətlərin optimallaşdırılması üzrə modellər müvafiq rayon təşkilatları tərəfindən istifadə edilə bilər.

Dissertasiya işinin nəticələri üzrə çap edilmiş nəşrlərdən magistr və bakalavr pillələrinin tələbələri üçün nəzərdə tutulmuş «Aqrar iqtisadiyyatı», «Ticarət və kooperasiyanın iqtisadiyyatı», «Menecment», «Marketinq» və digər fənlərin tədrisində istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması.** Dissertasiya işinin əsas müddəaları Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın (Bakı, 2013); Bakı Biznes Universitetində keçirilmiş «Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri» Beynəlxalq elmi-praktiki konfransın (Bakı, 2014); Azərbaycan Kooperasiya Universitetində keçirilmiş «Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı» Beynəlxalq elmi-praktiki konfransın (Bakı, 2014) öz əksini tapmışdır.

Dissertasiya işinin əsas nəticələri Azərbaycan Mərkəzi Kooperativlər İttifaqına təqdim edilmiş və istifadə üçün qəbul edilmişdir (17 iyun 2016-cı il tarixli, MMİ 364/ 10 saylı arayış).

Dissertasiya işinin əsas müddəaları və nəticələri, ümumi həcmi 3,4 çap vərəqi olan 9 adda elmi məqalə və tezislərdə əks edilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya girişdən, üç fəsildən, nəticədən, 144 adda istifadə edilmiş ədəbiyyat siyahısından

ibarətdir. İş 159 çap olunmuş səhifədə şərh olunur və özünə 27 cədvəl, 10 şəkil, 2 sxemi daxil edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Müasir şəraitdə kooperasiyanın təşkilinin nəzəri-metodoloji əsasları» adlanan birinci fəsli** aqrar sahədə kooperasiyanın yeri və rolunun araşdırılmasına həsr edilmişdir. Burada kooperasiyanın daxili fenomeni, onun fəaliyyətinin nəzəri və tarixi əsasları, həmçinin sosial-iqtisadi potensialı açıqlanır. Daxili bazar proseslərində kooperasiyanın təşkilinin və idarə edilməsinin metodologiyasına və müasir metodlarına baxılır. Burada kooperasiyanın təşkilinin dünya təcrübəsi və onun Azərbaycanın iqtisadiyyatında tətbiqinin xüsusiyyətləri yer almışdır.

Müasir şəraitdə kooperasiyanın sosial-iqtisadi əhəmiyyəti və onun inkişafının zəruriliyi ilk əvvəl Dövlət Proqramları və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 14 iyun 2016-cı ildə imzalanmış «Kənd təsərrüfatı kooperasiyası haqqında» Qanunu ilə müəyyən edilmiş parametrlərin əldə edilməsi ilə şərtlənir.

Sahədə anlayışların dəqiqləşdirilməsinə gəldikdə, demək lazımdır ki, «kooperasiya» - «əməkdaşlıq», «könüllü birlik» forması deməkdir. Bu istehsalın ixtisaslaşdırılması əsasında məhsulun birgə hazırlanması ilə məşğul olan, sərbəst təsərrüfat subyektlərinin arasında «uzun və davamlı əlaqələrin aydınlaşdırılması» deməkdir.

«Kooperativ» anlayışının təyininə gəldikdə demək lazımdır ki, bu daha mürəkkəb məsələdir. Çünki elmdə kooperativ anlayışının tam xarakterizə edilməsi üçün hələ ki son fikir yoxdur.

Buna baxmayaraq biz kooperativi üzvlərinə xeyir gətirən, bərabər hüquq və cavabdehliyə malik, geniş üzvlük üçün açıq olan insanların azad birliyi sayırıq. Təkcə onu göstərmək kifayətdir ki, Roçdeyllilərin tarixi fəaliyyəti buna misaldır.

Bununla əlaqədar olaraq sosial bazar iqtisadiyyatın məqsədlərinin əldə edilməsinə imkan verən inkişaf yolların bir çox problemlərinə baxılmışdır.

«Kooperasiya başqalardan fərqli təsərrüfat forması kimi cəmiyyətdə ekoloji, sosial və mənəvi parçanı qoruyur». Kooperasiyanın mübahisəedilməz üstünlükləri ondadır ki, o, sayca kiçik və orta müəssisələrin üstünlüyü sayəsində digər təsərrüfat təşkilatlarından fərqli olaraq ekoloji hədəflərə daha asan uyğunlaşır, bütün müasir sivilizasiyanın tutarlı məsələlərinin həllinə təsir göstərir, daha doğrusu təbii biznesin qəza dağıntısının qarşısını alır, ekologiyanın mühafizəsinə təsir göstərir, təbii mühitə uyğun inkişafı təmin edir.

Kooperasiya əhalinin məşğulluğunun saxlanılması, əmək bazarında problemlərin həlli əsasında alkoqolizm, narkomanlıq, cinayətkarlıq kimi sosial-xoşagəlməz halların genişlənməsinin qarşısını almağa imkan verir.

Fəaliyyətdə kooperasiya özünü əmək bölgüsü kimi göstərməklə, agentləri qismində bazarın subyektləri, müəssisələr və firmalar çıxış edirlər. Kooperasiyanın prinsipləri isə qarşılıqlı fəaliyyətdə olan strukturların gəlirlərinin artımına xidmət edir.

Bununla biz o qənaətə gəlirik ki, «kooperativçiliyin» başlıca cəhətləri könüllülük, vətəndaşların üzvlüyü, birgə maddi fəaliyyət və kollektiv mülkiyyətçilikdir. Həmçinin bu «birgə kollektiv pay mülkiyyəti əsasında şəxslərin istehsal, yaxud istehlak fəaliyyətindəki könüllü birlik forması» olmaqla fiziki şəxslərə, digər kooperativ strukturlara birbaşa yaxud dolayı yolla daxil olmağa, üfüqi və şaquli istiqamətlərdə kooperativ əlaqələri genişləndirməyə imkan verir.

Kooperasiya təsərrüfatçılığın forma müxtəlifliyini və idarəetmə metodlarını saxlayır, ictimai təsərrüfat təcrübəsində şəxsiyyətin azadlıq və demokratiya hüquqlarını qoruyur, insanları dağıdıcı fəaliyyətdən çəkindirir.

Kooperasiyanın təşkilinin və onun təşkilatı mexanizmlərinin Azərbaycanın iqtisadiyyatında tətbiqinin imkanlarına gəldikdə, təhlil göstərir ki, kooperasiyanın kənddə inkişafı kənd təsərrüfatı məhsulları istehsalçılarının iqtisadi potensialının və sosial statusunun möhkəmlənməsinə, ümumi daxili məhsulun həcminin artırılmasında stimulun yaradılmasına və ölkənin kənd təsərrüfatı istehsalının dünya səviyyəsində yer almasına yardım göstərə bilər.

Kooperasiyanın genişləndirilməsi istifadə edilməmiş torpaqları, əmək və maddi ehtiyatları təsərrüfat dövriyyəsinə daxil etməyə təkan verir.

Kooperasiyanın səmərəliliyinin qaldırılmasına iqtisadi-texnoloji, təşkilati-hüquqi, idarəetmə və digər amillər təsir göstərirlər.

Onların proseslərə cəlb edilməsi xarici və daxili mühitə uyğun dəyişən təşkilati mexanizmlərinin yaradılması hesabına mümkündür (Şəkil 1). Onlar kooperativin fəaliyyət prosesində bütün ehtiyatlardan səmərəli istifadə etməyə imkan verən bazar qanunlarının və dövlət siyasətinin təsiri altında formalaşır.

Beləliklə, kooperasiya sistemində təsərrüfatçılığın təşkilati mexanizminə, istehsalın səmərəliliyinin artımı əsasında, ümumi iqtisadi və sosial məqsədlərə nail olunması üçün, idarəetmə sisteminin istehsal və mübadilə proseslərinə qayda, norma və metodlar məcmusunun təsiri kimi baxılmalıdır.




***Şəkil 1.*****Kooperasiyanın təşkilati mexanizmlərinin əsas elementləri**

Kooperasiyanın müasir şəraitdə təşkilati mexanizminin mahiyyətinin və məzmunun nəzəri və metodoloji əsaslarının tədqiqi, onun nəzəriyyəsi və təcrübəsində iki əsas istiqaməti müəyyən etməyə imkan vermişdir. Onlardan biri nəzərdə tutur ki, kooperasiya sosial baxımdan ədalətli cəmiyyətə gedən yoldur. İkincisi, kiçik mal istehsalçılarının həyati vacib məsələlərinin həlli üzrə təcrübi vəzifələrdən doğur. Göründüyü kimi, kənd təsərrüfatı istehsalında kooperasiya obyektiv zəruriyyət doğurur, öz inkişafında böyük tarixə malikdir. Müasir şəraitdə kooperasiya problemlərinin həlli, keyfiyyətcə yeni əhəmiyyət və məzmun kəsb edir, demokratik əsaslarla təsərrüfatçılığın özünüidarəetmə formalarının yaradılmasına və mal istehsalçılarının inhisarçılıqdan müdafiəsinin təşkilinə və rəqabətin inkişafına təkan verir.

Aqrar sahədə innovativ tədbirlər sisteminin mexanizmlərinin təkmilləşdirilməsi içərisində kooperasiyanın təşkilinin və idarə edilməsinin müasir metodları mühüm əhəmiyyət kəsb edir. Bunun üçün kooperasiyada tərəf müqabillər arasında iqtisadi münasibətlərin səmərəli metodu və mexanizmi yaradılmalı; üzvlərin sosial-iqtisadi maraqları təmin edilməli; normativ sənədlər vasitəsilə kooperativlərin təsərrüfatçılıq fəaliyyətinin yaradılması və fəaliyyət göstərməsi üçün prinsiplər işlənib hazırlanmalı və həyata keçirilməli; kooperativdə üzvlərin idarəetmədə iştirakı təmin edilməli; onların maraqları üçün kooperasiyanın və inteqrallaşmanın müxtəlif səviyyələrdə inkişafının təşkilatı formaları və metodları təyin edilməlidir.

Fkrimizcə, kənd təsərrüfatında kooperasiyanın təşkilinin və idarəedilməsinin mexanizmləri aşağıdakı səviyyələri əhatə etməlidir: müəssisə səviyyəsində - müəssisələrin yenidən təşkili bazasında kooperativ formalaşmaların yaradılması üzrə təsərrüfatlararası kooperasiya; rayon və regional səviyyədə ərazi kooperasiyası; regionlararası kooperasiya.

Bunun əsası kimi aşağıdakılar götürülməlidir: istehsalın ictimailəşdirilmə səviyyəsi; kooperativ yanaşmalarının formaları; fəaliyyətin növü və xarakteri; iştirakçıların təsərrüfat və hüquqi vəziyyəti; ərazi əlaməti və s.

Göründüyü kimi, əhali təsərrüfatlarında kooperasiyanın yeni təşkilati formalarının daha geniş inkişaf etdirilməsi tələb olunur. Onların öz aralarında, həmçinin kəndli (ailə) təsərrüfatlarının, fərdi sahibkarların istehsal, xidmət, təchizat, satış və s. kooperasiyası perspektiv formalardan sayılırlar.

Bundan başqa, kəndin iqtisadi məsələlərini kənd təsərrüfatı məhsulları istehsalçıları ilə yanaşı xidmət, emal, tədarük təşkilatlarının, həmçinin ticarət müəssisələrinin səylərini birləşdirmək yolu ilə də həll etmək olar. Bütün hallarda belə şaquli kooperativlərin əsas təsisçiləri kənd təsərrüfatı məhsulları istehsalçıları olmalıdırlar.

Azərbaycanda kənd təsərrüfatı kooperasiyasının inkişaf etdirilməsinin əhəmiyyəti bir daha ondan irəli gəlir ki, onun spesifik xüsusiyyətləri ilə yanaşı, həm də ayrılıqda istehsalçının imkanları daxilində edilə bilməyən, onsuzda qıt olan maliyyə və maddi-texniki vasitələrdən daha səmərəli istifadə edilməsindədir.

Tərəfimizdən kooperasiyanın təsərrüfat fəaliyyətinin genişləndirilməsi üçün bir sıra təkliflər verilir. İstehsal kooperativlərinin təşkilati modellərinin formalaşdırılmasının və idarə edilməsinin mərhələləri göstərilir. Dissertasiyada kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı, kooperativlərin formalaşmasının modelləri verilir, kooperasiyanın təşkilinin Adıgey təcrübəsi gətirilir. Deyilənlər göstərir ki, sahibkarlıq fəaliyyətin inkişafına əsaslanan idarəetmənin təşkilati metodlarına xüsusi yer ayrılmalıdır.

Burada idarəetmənin üç əsas metodlar qrupunu ayırd etmək olar: inzibati (təşkilati-sərəncamverici), iqtisadi və sosial-psixioloji. İdarəet-mənin hər üç metodlar qrupu üzvü surətdə biri digəri ilə qarşılıqlı bağlıdır. Onların məzmunu qərarlarda, əmrlərdə, göstərişlərdə və s. özünü göstərir.

Kooperativ sahibkarlığın inkişaf etdirilməsi sahəsində xarici ölkələrin təcrübəsinin Azərbaycanın iqtisadiyyatına tətbiqi imkanları təsdiq edilir.

Məlumdur ki, kooperativ hərəkatın vətəni haqlı olaraq Almaniya sayılır. Bu hərəkat istər nəzəri, istərsə də təcrübə cəhətdən bütün Avropa ölkələrindən əvvəl burada formalaşmışdır. 150 il bundan əvvəl yaradılan kooperativ banklar bu gün öz həyati qabiliyyətliliyini sübut etmişdir. Almaniyada kənd təsərrüfatının və kredit kooperativlərinin kütləvi inkişafının başlanğıcı kənd təsərrüfatında kooperasiyanın əsasını qoyan -onun «atası» Fridrix Rayffayzenin adı və fəaliyyəti ilə bağlıdır. F.V.Rayffayzenin göstərdiyi kimi, «özlüyündə xeyriyyəçilik kəndlinin problemini həll etmək iqtidarında deyil. Kömək ondan ibarət olmalıdır ki, müstəqil iqtisadi fəaliyyət üçün şans verilsin».

Dissertasiyanın **«Azərbaycanda kooperasiyanın mövcud vəziyyəti və onun təşkilati mexanizmlərinin inkişaf meyilləri» adlı ikinci fəslində** respublikamızda kooperasiyanın hazırkı vəziyyəti təhlil edilir, müasir kooperativ hərəkatın strukturlaşmış problemlərinin həllində müstəsna əhəmiyyət kəsb edən kooperasiyanın sahə, ərazi və funksional formalarına baxılır, aqrar sahədə gedən struktur dəyişikliklərin kooperasiyanın inkişafına təsiri göstərilir, kooperasiyanın strateji istiqamətlərini daha dəqiq təyin etməyə imkan verən kooperasiyanın təşkili mexanizmlərinin əsas amilləri gətirilir, kooperasiyanın inkişafında mövcud olan çatışmazlıqlar, ugursuzluqlar üzə çıxarılır.

Kooperasiyanın tarixi təhkimçilik hüququnun ləğvindən 30 il əvvəl, 1860-cı ildə qoyulmasına baxmayaraq 1985-ci ildə dövlət mülkiyyəti (sov-xozlar) daxil olmaqla, kooperativlərin rəmzi olaraq «könüllü», daha doğrusu məcburi qaydada yaradılması ölkənin kooperativ sistemini dağıtmışdı.

Sxematikliyinə görə kooperativlərin növ müxtəliflikləri daxilində kooperasiyanın təşəkkülünün və inkişafının bazasını kənd təsərrüfatı istehsal kooperativləri, birgə əmək fəaliyyəti üçün insanları birləşdirən istehlak kooperativləri təşkil edirlər.

Azərbaycan Respublikasının Mülki Məcəlləsində üzvlük əsasında iştirakçıların maddi və digər tələbatlarının ödənilməsi məqsədi ilə bir qayda olaraq ərazi əlamətlərinə görə onların üzvləri tərəfindən əmlak pay haqlarının birləşdirilməsi yolu ilə həyata keçirilən vətəndaşların və hüquqi şəxslərin yuxarıda qeyd edildiyi kimi könüllü birliyi - istehsal və istehlak kooperativləri

kimi tanınır. Bu müddəa kooperasiyanın daxili bazar mühitini tədqiq edən İ.H.İbrahimovun müddəaları ilə təsdiqlənir. Göstərmək lazımdır ki, Azərbaycanda ilk kooperasiyanın hələ 1899-cu ildə Qarabağın Xankəndində təşkil edilməsinə baxmayaraq son illər kooperasiyanın inkişafı ləngiməkdədir. Belə ki, 2000-ci ildə Azərbaycanda 250 kooperativ olduğu halda, hazırda onların sayı 4,3 dəfə azalaraq 58-ə enmişdir (Cədvəl 1 ).

***Cədvəl 1.***

**2000-2015-ci illərdə kənd təsərrüfatı müəssisələrinin, kooperativlərin və sahibkar təsərrüfatlarının inkişaf dinamikası**

| | Ölçü vahidi | İllər | | | |
|---|---|---|---|---|---|
| | | 2000 | 2005 | 2010 | 2015 |
| kənd təsərrüfatı müəssisələri | vahid<br>% | 2653<br>100 | 2182<br>100 | 1825<br>100 | 1298<br>100 |
| o cümlədən: | | | | | |
| dövlət müəssisələri | vahid<br>% | 408<br>15,3 | 303<br>13,4 | 217<br>11,9 | 235<br>18,1 |
| kooperativlər | vahid<br>% | 250<br>9,4 | 164<br>7,5 | 73<br>4,1 | 58<br>4.5 |
| özəl təşkilatlar | vahid<br>% | 1993<br>75,1 | 1713<br>78,5 | 1533<br>84,1 | 1003<br>77,3 |
| fərdi sahibkarlar | vahid<br>% | 3248<br>122,4 | 2681<br>143,6 | 2618<br>143,6 | 1534<br>118,2 |

Göstərmək lazımdır ki, kooperativlərin sayının azalması ilə bərabər onların səmərəliyi də çox aşağıdır. Məhsuldarlıq göstəricilərinə görə kooperativlər respublika göstəricilərindən xeyli geri qalırlar, torpaqların məhsul verimi aşağıdır. Bunun əsas səbəbi kooperativlərin yaradılmasına olan marağın zəifləməsi, 2003-cü ildə Azərbaycan Respublikasında «Kooperasiya haqqında» Qanunun qüvvədən düşməsi, kənd təsərrüfatı kooperasiya sisteminin formalaşmasına göstərilən yardımın çatışmaması, kreditin alınmasındakı çətinliklər, ona qoyulan yüksək faizlər; vahid birləşdirici mərkəzin, yüksək ixtisaslı kadrların, kənd təsərrüfatı kooperasiyasının vəziyyəti barədə həqiqətə uyğun gələn rəsmi informasiyanın olmamasındadır.

Kooperativ formalaşmalarının təşkilində kəndli (ailə) təsərrüfatlarının zəif inkişaf sürəti, onların maddi-pul bazasının qıtlığı və payçıya cəmi 0,5-2 hektar torpaq sahəsinin düşməsi göstərilənlərə bir daha sübutdur. Belə bir nəticəyə gəlmək olar ki, kəndli (ailə) təsərrüfatlarında istehsalın strukturu, əməkdaşlıqda tələbatların qarşılıqlı münasibəti əvəzinə təsərrüfatçılığın öz şəxsi mənafeyinə uyğunlaşdırılmasından xəbər verir.

Tədqiqatlar göstərir ki, təsərrüfat formalarının geniş spektrinə baxmayaraq az əmtəəli şəxsi təsərrüfatların fəaliyyəti əsasən əl əməyinə və «dədə-baba» texnologiyalarına əsaslanır.

Kolxoz və sovxozlarda olan torpaqların varislik hüququ ilə uzun müddətə kəndli təsərrüfatlarına kütləvi verilməsi, kooperasiyanın uğurlu inkişafını zəiflətdi.

Azərbaycanın aqrar sektorunda kooperativlərin iki – kənd təsərrüfatı istehsalı və istehlakı formalarında təşkilinə imkan verən hüquqi baza, fərdilikdə Mülki Məcəllə əhəmiyyətli dəyişiklik vermədi.

Hazırda Respublikada kooperasiyanın potensial sosial bazasının təşkili üçün 4 mln 431 min kənd sakini ilə bərabər, 1 yanvar 2017-cı il tarixə fəaliyyəti olan 1298 kənd təsərrüfat müəssisəsi vardır. Bundan başqa kooperativ quruculuğunda 1534 fərdi sahibkarlara məxsus təsərrüfatlar iştirak edə bilərlər. Burada fərdi sahibkar təsərrüfatlarının gəlirliliyi aşağı olmaqla, məhsulun maya dəyəri və əmək məsarifi yüksəkdir. Belə ki, 2015-ci ildə 1sentner dənlilərin maya dəyəri 12,9 manat, əmək məsarifi 10,9 adam/saat; müvafiq olaraq tərəvəzlərin - 15,3 və 23; mal ətinin - 223,7 və 260; südün -29,3 və 48,1; yunun - 119,7 və 393,3; min ədəd yumurtanın - 119,7 və 162 olmuşdur.

Dünya ərzaq bazarında sosial sabitliyin və iqtisadi artımın saxlanması üçün kooperativ münasibətlərə bütün kənd əhalisi, fermerlər və kənd təsərrüfatı təşkilatları cəlb edilməlidirlər.

Dissertasiyada təklif edilən əlamətlərə görə kooperativlərin bölüşdürülməsi kooperasiyanın səmərəli modellərinin tapılması, təsərrüfatçılığın koopperativ formalarının təşkilati-iqtisadi mexanizminin optimallaşdırılması, kooperasiya sistemində kooperativlərin tipləşdirilməsi üçün elmi əsas yaradır.

Hazırda istehsala daha yaxın idarəetmə aparatının təşkilati strukturu bazar münasibətlərinin prinsiplərinə cavab verməlidir. Bu halda Respublikamızda kənd təsərrüfatı təmayüllü istehsal kooperativlərinin təşkilati mexanizmi formalaşdırılarkən xarici ölkələrin təcrübəsinə istinad edilməlidir. İspaniyada istehsalla məşğul olan kooperativlərin mənafelərini əlaqələndirmək üçün səhmdar cəmiyyətlər yaradılır. İstehsal kooperativləri bilavasitə bu cəmiyyətlərin idarə edilməsində iştirak edirlər.

Dünya təcrübəsinə əsasən kənd təsərrüfatında istehsal və xidmət kooperativlərinin təşkilati quruluşu və münasibətləri yerli, ərazi və sahə xüsusiyyətləri nəzərə alınmaqla, respublikamızda formalaşdırıla bilər.

İdarəetmənin kənd təsərrüfatında istehsal, emal, xidmət və s. sahələrdə təklif edilən təşkilati quruluşunun tətbiqi müəssisə və təşkilatların qarşılıqlı iqtisadi münasibətlərinin təkmilləşdirilməsinə, istehsalın inkişafına zəmin yaradır. Belə tipdə koperativ birlikləri tam könüllülük prinsipində Azərbaycan Respublikasının «Kənd Təsərrüfatı Kooperasiyası haqqında» yeni Qanuna uyğun

yaradıla bilər. Fikrimizcə, respublika səviyyəsində Kooperativlər İttifaqının təsisçiləri rayon kooperativ birlikləri olmaqla, onlar ittifaqda tam könüllülük prinsipi əsasında fəaliyyət göstərə bilərlər. Respublika səviyyəsində kooperativlərin ittifaqı, kooperativlər birliyinin hüququ təminatçısı, istehsal bazarının tənzimləyicisi, istehsal və emalın normal və perspektivli inkişafının təminatçısı funksialarını həyata keçirməlidirlər.

Kooperativlərin yaradılması və aralarındakı istehsal-iqtisadi münasibətləri formalaşdırmaq üçün müəyyən edilmiş prinsiplərə uyğun qarşılıqlı əlaqələr daxilində onların idarə edilməsinin təşkilati quruluşu işlənib hazırlanmışdır. Bu, aqrar dəyişikliklərin müasir mərhələsində çoxformalı təsərrüfatçılıq və sahibkarlıq şəraitində kənd təsərrüfatı kooperasiyası üstün istiqamətlərdən biri sayılır. Çoxquruluşlu iqtisadiyyatda iqtisadi mexanizmlərin spesifik təsiri altında kooperativ strukturların yaradılması üçün daha çox obyektiv zəmin yaranır.

Bazar şəraitində aqrar sektorda kooperativ strukturların yayılması həm üfüqi, həm də şaquli istiqamətlərdə genişlənə bilər. Daha doğrusu kooperasiya bazar münasibətləri şəraitində təsərrüfat subyektlərinin səmərəli işləməsini şərtləndirən bağlayıcı zəncirdir

Fikrimizcə kooperativçiliyin inkişafı üçün dövlət dəstəyi sahəsində aşağıdakı təcili tədbirlər tələb olunur:

• müasir Azərbaycanın iqtisadiyyatında və kəndin sosial sahəsində kənd təsərrüfatı istehsal kooperativlərinin rolunun və yerinin qanunla tanınması;

• kənd təsərrüfatı istehlak kooperativlərinin kənd təsərrüfatı istehsal kooperasiyasına geniş surətdə cəlb edilməsi;

• kənd təsərrüfatı istehsal kooperativlərinin fəaliyyətinə nəzarətin gücləndirilməsi və onların üzvlərinin hüquqlarının, həmçinin qanuni maraqlarının qorunması sahəsində tədbirlərin görülməsi.

Azərbaycanda kooperasiyanın müasir inkişaf mərhələsi kənd təsərrüfatı istehsal kooperasiya sisteminin yaradılmasına istiqamətlənmişdir. Dünya təcrübəsi göstərir ki, böhran şəraitində belə kooperasiya böyük uyğunlaşma potensialına malikdir. Bizim ölkədə o, kənddə təsərrüfatçılığın kiçik formalarının birləşməsində və fəaliyyət səmərəliliyinin artırılmasında mühüm rol oynaya bilər. Bu baxımdan iqtisadiyyatın müasir inkişaf mərhələsində aqrar sahədə kooperasiyanın inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün kooperasiyanın inkişafının obyektiv qiymətləndirilməsi göstərir ki, çoxquruluşlu iqtisadiyyatın formalaşdırılması ilə bağlı, aqrar bölmədə struktur dəyişikliklər böyük ziddiyyətlərlə xarakterizə olunurlar, çünki baş verən hadisələrin həm müsbət, həm də mənfi tərəfləri vardır.

Həmçinin müasir kooperativlərin təşkili mexanizmlərinin amillərinə göstərilən konseptual yanaşmalara yenidən baxılmasının vaxtı artıq çatmışdır. Çünki daxili kooperativ bazarın harmonik inkişafı, daxili və xarici təsiredici amillərin yüksək dərəcədə tarazlaşdırılması yolu ilə mümkündür.

İstehlak kooperasiyasının daxili bazarı əlverişli şəraitdə təzələnmək və artmaq qabiliyyətinə malik olan qarşılıqlı əlaqələrin davamlı sosial-iqtisadi sistemi olduğu üçün işdə kooperasiyanın funksional formalarının nəzəri və praktiki əhəmiyyətinə, onun təşkilinin amillərinə və strukturuna baxılır.

Tədqiqatlar göstərir ki, hazırda daxili və xarici amillərdən asılı olaraq təsərrüfatçılığın kooperativ formaları üçün qeyri-sabit inkişaf və istehsalın aşağı rentabellik səviyyəsi xasdır. Xüsusilə bu istehsal kooperativlərinə aid edilməlidir. Bu onların təsərrüfat fəaliyyətinə, səmərəliliyinə və amillərinin qiymətləndirilməsinə təsir edən səbəblərin müəyyənləşdirilməsinin vacibliyini şərtləndirir.

Biz, istər maddi istehsal sahəsində, istərsədə sosial-iqtisadi münasibətlər sistemində təsərrüfatçılığın kooperativ formalaşmalarına mürəkkəb sosial-iqtisadi kateqoriya kimi baxırıq. Kooperasiyada bu proseslərin səmərəliliyi, bütün amillərin istehsalın səmərəliliyinə və təkrar istehsala etdiyi təsirlərdən asılıdır.

Hesab edirik ki, kooperasiyanın səmərəliliyinə təsir göstərən çoxlu sayda olan amilləri daxili və xarici qruplara bölmək olar. Xarici amillər obyektiv xarakter daşımaqla, kooperativin iradəsindən asılı olmayaraq formalaşan şərtləri müəyyən edir. Bilavasitə idarəetməyə aid olan bu amillər rəqabət mühitinin yaradılmasına və dövlətin ərzaq təhlükəsizliyinə yönəlmişdir. Kooperativin rəhbərliyi bu amilləri təşkilatın xeyrinə istifadə edilməsi üçün onları nəzərə almalıdır.

Daxili, yaxud subyektiv amillər kooperasiya iştirakçısının iradəsilə formalaşmaqla, ən yüksək nəticənin - məhsulun maya dəyərinin azadılması və daha çox gəlirin götürülməsi məqsədini daşıyır. Mexanizmin xarici amillərinə aiddirlər: dövlətin aqrar siyasəti, ölkə və yerli normativ aktların işlənib hazırlanması; təbii-iqtisadi şərait, torpaq və əmək ehtiyatlarının olması, daxili və xarici bazarın tənzimləmə mexanizmi; qiymət münasibətlərinin dövlət tənzimlənməsi; maliyyə-kredit mexanizmi və sığorta sistemi. Mexanizmin daxili amillərinə aşağıdakıları aid etmək məqsədə uyğundur: təşkilati-istehsal strukturu; marketinq və loqistikanı; funksiyaları; çevik idarəetməni; əməyin təşkilini və nəzarəti; iqtisadi münasibətləri və təsərrüfat hesabını; istehsalın texnologiyasını; innovativliyin fəallaşdırılmasını; əməyin motivləşdirilməsini; kollektivin sosial inkişafını.

Dissertasiyanın **«Ölkəmizdə kooperasiyanın təşkilati mexanizminin təkmilləşdirilməsi istiqamətləri» adlanan üçüncü fəslində** ölkədə

kooperasiyanın təşkilatı mexanizmlərinin təkmilləşdirilməsinin əsas istiqamətləri tədqiqat predmeti olmuşdur. Burada elmi əsaslandırılmış dəlillər vasitəsilə dövlət tənzimlənməsinin yeni mexanizmləri və prinsipləri verilir, müasir tələblər baxımından kooperasiyanın təşkilati-hüquqi əsaslarının təkmilləşdirilməsi zərurəti önə çəkilir, diqqəti cəlb edən əhalinin bazar tipli kooperativ təsərrüfat modelləri, həmçinin istehsal-təminat kooperativinin təşkilati struktur layihəsi (modeli) verilir. Bunlar kooperativlərin yaradılması, təşkili və inkişafı üçün əlverişli münbit mühit yaradır.

Мцасир Азярбайсанда коопераситйанын qanunverici норматив-щцгуги базасы цмуми ганунверисиликляр və хцсуси aktlarla тянзимлянир. Deyildiyi kimi, hazırda «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının yeni Qanunu qəbul edilmişdir.

Kənd təsərrüfatı kooperativlərin inkişafını stimullaşdırmaq məqsədi ilə potensial kooperatorların (kəndli ailə və şəxsi yardımçı təsərrüfatların və digər kiçik formaların) hüquqi statusunun möhkəmləndirilməsi və təsərrüfat fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsi üçün tədbirlər görülməli, kooperativlərin özlərinin formalaşmasının və fəaliyyətinin hüququ bazası yaxşılaşdırılmalıdır.

Hesab edirik ki, birinci istiqamətin çərçivəsində adları çəkilən təsərrüfatların statusu dəqiqləşdirilməli, torpaqdan istifadənin tənzimlənməsi, həmçinin onlara edilən dövlət dəstəyi barədə qanunverici aktlara əməl edilməsi üzərində nəzarət gücləndirilməlidir. Daha sonra kooperativlərin xüsusiyyətlərini daha dolğun əks etdirmək məqsədi ilə, onların səhmdar cəmiyyətlərin və yoldaşlıqların əlamətlərinə düşməyən təsərrüfat fəaliyyətinin xüsusi («sui generis») hüquq forması kimi qeydə alınması həyata keçirilməlidir. Burada hüquqi şəxslərin ikili təsnifatdan, üçlü təsnifata keçirilməsi nəzərdə tutulur (yəni kommersiya, qeyri-kommersiya və kooperativ təşkilatlar).

Kənd təsərrüfatı istehlak kooperativlərini kənd təsərrüfatı məhsullarının istehsalçılarına yaxınlaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Vergilər Məcəlləsinə dəyişikliklər daxil edilməlidir. Bu tədbir, istehlak kooperativlərini kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün nəzərdə tutulmuş xüsusi vergi rejiminə («Vahid kənd təsərrüfatı vergisinə») keçməyə imkan verir. Əlavə dəyər vergisindən yayındırmamaq üçün kənd təsərrüfatı istehlak kooperativləri tam formalaşana qədər, yəni 10-15 il müddətinə əlavə dəyər vergisindən azad edilməlidir.

Bundan başqa bir çox mühüm məsələlərin həlli, məsələn, öz nizamnamələrində müvafiq normaların qoyulması kooperativlərin özlərinə həvalə edilmişdir. Yaxşı olardı ki, bu məsələlərin tənzimlənməsinin ümumi istiqamətləri qanunla müəyyən edilə idi.

İstehlak kooperativində ziyanların bölüşdürülməsi və onların ləğv

edilməsi qaydaları kooperativin öz üzvləri arasında müqavilə münasibətləri əsasında qurulmalıdır. Bundan başqa kooperativin öz üzvləri ilə müqavilə münasibətlərinin tənzimlənməsinin dəqiqləşdirilməsi tələb olunur. Çünki hazırda bu sahədə bəzi müddəalar dəqiqləşdirilməmiş vəziyyətdədir. Məsələn, «kooperativ və onun üzvləri lazım gəldikdə müqavilə bağlayırlar», yaxud «müqavilədə tərəflərin cavabdehliyi barədə şərtlər nəzərdə tutula bilər» deyilən müddəaların əvəzinə, fəaliyyət növündən asılı olaraq istehlak kooperativlərinin öz üzvləri ilə müxtəlif növ müqavilələrin bağlanmasına dair məcburi göstəriş olmalıdır.

Eyni zamanda İcra hakimiyyət orqanları tövsiyə xarakteri daşıyan bir sıra sənədlərin, o cümlədən kənd təsərrüfatı istehlak kooperativləri və onların üzvləri arasında müqavilələrin bağlanması və icrası, kooperativlərdə uçot və hesabatın aparılması qaydaları barədə metodiki tövsiyələrin, nizamnamə lahiyələrinin hazırlanmasını təşkil etməlidirlər. Bu halda kooperasiyada istehsal və bölgü iqtisadi münasibətlər mexanizminin tərkib hissəsi olduğundan, kooperasiyanın təşkilində ilk əvvəl kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması və ixracı prosesində münasibətlər mexanizmi vasitəsilə təsərrüfatçılığın bərabər iqtisadi şərtləri və əlverişliliyi təmin edilməlidir. Burada kooperativlərin inkişafı üçün əlverişli vergi, maliyyə-kredit, investisiya siyasətinin formalaşdırılması mühüm yer almalıdır.

Kooperasiyanın təsərrüfat fəaliyyətinin genişləndirilməsi üçün aşağıdakılar təklif olunur:

1) yerli idarəetmə orqanları ilə birlikdə monitorinq keçirməklə, kooperativlərin növü və fəaliyyət istiqaməti üzrə onların siyahısını formalaşdırmaq;

2) hər bir rayonda yeni kooperativin yaradılması və fəaliyyət göstərən kooperativin səmərəliliyinin qaldırılması istiqamətində işləri fəallaşdırmaq;

3) büdcə vəsaitləri hesabına kənd təsərrüfatı kooperativlərinə verilən dövlət yardım tədbirlərinin səmərəsinin yüksəldilməsi üzrə təkliflər hazırlamaq;

4) istehsal infrastrukturunun, kənd təsərrüfatı məhsullarının, xammalın və ərzağın tədarükü və satışı üzrə obyektlərin yaradılması üçün müvafiq orqanlarla birlikdə 2017-ci ildə maliyyə həcminin artırılması sahəsində tədbirlər görmək;

5) kənd təsərrüfatı kooperasiya sisteminin inkişafı üçün ayrılan dövlət maliyyə yardım tədbirlərinin məqsədli istifadə edilməsi üzərində nəzarəti gücləndirmək;

6) inzibati orqanların rəsmi saytlarında, internet informasiya şəbəkəsində və çap nəşrlərdə fəaliyyət göstərən kooperativlər və onların istehsal etdikləri məhsullar barədə informasiya yerləşdirmək.

Regionda kənd təsərrüfatı kooperasiyasının inkişafının sosial bazası əsasında birgə kənd təsərrüfatı istehsalını təşkil etmək üçün üfüqi kooperativləri, digər hallarda rayon səviyyəsində hər birinin bir səsi olan, çoxsahəli kooperativlərin üzvləri kimi çıxış edən iri kənd təsərrüfatı təşkilatlarının gücü ilə şaquli (qarışıq) kooperativləri yaratmaq olar. Belə kooperativ birliklərin təşkilati modelləri bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı, həm də onun tədarükü, emalı, saxlanması, satışı sahəsində də inkişaf edə bilərlər. Müasir şəraitdə öz aralarında texnoloji, təşkilati və iqtisadi münasibətlərdə sıx bağlılıq təşkil edən müxtəlif istehsalların birləşməsi əsasında rayon və rayonlararası səviyyədə istehlak kooperativlərinin yaradılması gələcəyə malikdir.

Aşağıda rayon səviyyəsində bazar tipli kənd təsərrüfatı istehsal, təchizat, satış, kooperativin təşkilati strukturunun layihəsi verilir. Bura kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinə rəhbərliyi təmin edən xətti və funksional xidmətlər daxildirlər (Şəkil 2).




***Şəkil 2*. İstehsal-təminat kooperativin təşkilati struktur layihəsi**

Şəkil 2-də verilmiş kooperasiyanın modeli kooperativə sərəncamında olan dövlət dotasiyalarının, bank kreditlərinin, həmçinin istehsal ehtiyatlarının bölgüsünü aparmağa, idarəetmə və təsərrüfat funksiyalarını yerinə yetirməyə imkan verir. Bunun təsisçiləri başda aqroparklar olmaqla iri müəssisələr, kəndli (ailə) təsərrüfatları, əhalinin təsərrüfatları, digər emal, tədarük, satış xidmətləri ola bilərlər.

Kənd təsərrüfatı məhsullarının istehsalı üçün əhali təsərrüfatlarının perspektiv kooperativ modelləri seçilərkən sosial-iqtisadi, təbii və texnoloji və s. amillər nəzərə alınmalıdır. Gələcəkdə təsərrüfatların inkişafını tapa biləcək kooperasiya formalarından biri kimi süd məhsullarının satışı üzrə ixtisaslaşdırılmış kooperativləri göstərmək olar. Burada əhalinin təsərrüfatları üzrə illik süd ehtiyatı 1700-1900 litr təşkil etməlidir. Südün yararlılıq müddəti nəzərə alınmaqla onun daşınma məsafəsi 30-40 km olmalıdır. Süd sisternası 2-4 ton tutumu olan nəqliyyat vasitəsilə daşınmalıdır. Hər 100 həyətə 150 sağmal heyvanın düşməsi nəzərə alınsa bir həyətdə illik əmtəə süd istehsalı 3400 litr (sutkalıq 8-10 litr) olacaqdır. Südün ixracı üzrə kooperativ orta hesabla əhalinin 125-150 fərdi təsərrüfatına xidmət göstərməlidir. Belə modeldən istifadə edərkən südün ixracı üçün üç nəfərdən ibarət qrup yaradılır. Süd əhalinin təsərrüfatlarında, yaxud tələb olunan ləvazimat və materiallarla təchiz olunmuş xüsusi süd qəbulu məntəqələrində aparıla bilər. Kooperativin üzvləri südün nəqli və ixracı üçün kooperativə ümumi məhsulun 6%-i həcmində ödəniş edirlər. Nəqliyyat vasitəsi üzvlərin pay haqqı hesabına əldə edilir.

Bundan başqa iştirakımızla rayonda kəndli (ailə) təsərrüfatların, aqrar istehsalın kiçik və orta əmtəə sektoruna aid olan əhali təsərrüfatlarının əsasında üfüqi, həmçinin iri kənd təsərrüfatı təşkilatlarının inteqrallaşma elementlərilə şaquli optimal kooperativ modellərinin layihələri və fəaliyyətin texniki-iqtisadi metodikası hazırlanmışdır. Axırıncının məqsədi bitkiçilik və heyvandarlıq məhsullarının istehsalından, satışından, yeni təsərrüfat formalarının yaradılmasından, istehsalın səmərəliliyinin qaldırılmasından ibarət olacaqdır.

İstehsal potensialının (torpağın, maddi-texniki və əmək ehtiyatlarının və mal-qaranın) belə cəmləşdirilməsi, kooperasiyanın ümumi məqsədlərinin əldə edilməsinə yönələn problemləri ilə birlikdə, rayon səviyyəsində sistem kimi aqrar iqtisadiyyatın fəaliyyəti üçün obyektiv əsas yaradır.

Onu da göstərmək lazımdır ki, kooperasiya inteqrallaşmış elementləri ilə inkişafı üçün respublikanın rayonlarında optimal institusional strukturlu kənd təsərrüfatı mərkəzlərinin tərkibində aqroparkların yaradılması dövlətin potensial kooperatorlarla kəndli (ailə) və şəxsi yardımçı

təsərrüfatlarla, digər kiçik formalaşmalarla əməkdaşlığın əsasında innovativ kooperativ fəaliyyətin geniş miqyaslı infrastrukturunu fəallaşdırmaq mümkündür.

Beləliklə, yerinə yetirilmiş tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti ondan ibarətdir ki, əsas nəticələr və tövsiyələr kooperasiya formalarının və onların təşkilati mexanizmlərinin formalaşdırılması və təkmilləşdirilməsi problemlərinin təcrübədə sistemli həllində və vahid sistem kimi kooperasiyanın rayon və regional konsepsiya layihələrinin qurulmasında istifadə edilə bilər.

Dissertasiya işinin sonunda aparılan tədqiqata dair dəyərli nəticələr verilmiş, elmi və təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr irəli sürülmüşdür. Onlar aşağıdakılardır:

1. Kooperasiyanın müasir şəraitdə təşkilati mexanizminin mahiyyətinin və məzmununun nəzəri və metodoloji əsaslarının tədqiqi, onun nəzəriyyəsi və təcrübəsində iki əsas istiqaməti - kooperasiyanın ədalətli yolunu və kiçik istehsalçıların təcrübi vəzifələrini müəyyən etməyə imkan vermişdir.

3.Müasir şəraitdə innovativliyə söykənən kooperasiya mexanizminin inkişafı məhsul istehsalının yüksəlməsi, əmək məhsuldarlığının artması, əhalinin sosial problemlərinin həlli üçün mühüm amil sayılır.

4. Qanunvericiliklə Azərbaycanda vətəndaşların birgə fəaliyyəti üçün kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı sahəsində istehsal və istehlak kooperativlərinin hüquqi bazası yaradılmışdır. Bunlar mülkiyyətçilik formasına, təşkilati-hüquqi statusuna, sahəvi tərkibinə, texnoloji proseslərin bağlılığına, bazarın əhatəliyinə, təsir formasına görə xarakterizə olunurlar.

5. Kənd təsərrüfatında kooperasiyanın təşkilati mexanizmlərinin təkamülünün və məzmununun tədqiqi, vahid məqsədli sistem kimi onu formalaşdıran əsasverici elementləri müəyyən etməyə, təsir səviyyəsinə görə qruplaşdırmağa imkan verir.

6. Aqrar sahədə gedən struktur dəyişikliklər çoxsistemli iqtisadiyyatın formalaşmasına və bazarın liberallaşmasına, nəticə etibarilə istehsalın kəskin dəyişməsinə səbəb olmuşdur. Bu halda kooperasiya mexanizmlərinin qurulması üçün motivləşdirmənin, birliyin inkişafı üçün məqsədlərin və vəzifələrin təyin edilməsi, səmərəli bazar modelinin seçilməsi, səmərəliliyin sosial-iqtisadi baxımdan əsaslandırılması kimi metodik yanaşmalar tələb olunur.

7. Kooperasiya idarəçiliyinin bazar tipli modelinin seçilməsi üçün kooperasiyanın müxtəlif formalı təşkilatı strukturu verilmiş, onların fəaliyyətinin texniki-iqtisadi əsaslandırılmasının metodikası hazırlanmışdır. Fikrimizcə, bu halda həlledici əsas göstəricilər kimi ümumi məhsul

istehsalı, ümumi gəlir, rentabellik, məhsulların maya dəyəri, investisiyaların özünü doğrultması və s. götürülməlidir.

8. Sahibkarlıq sahəsində xaricdə mövcud olan müsbət aspektlərin Azərbaycan təcrübəsində tətbiqi yolu ilə, ölkədə kooperasiyanın səmərəliliyinin yüksəldilməsi üçün kooperativ sahibkarlığın əsasında kənd təsərrüfatının idarə edilməsi mexanizminin qurulması faydalı ola bilər.

9. Yeni kooperativ formalaşmalarının təşəkkülü üçün dövlət tənzimlənməsinin səmərəli mexanizminin işlənib hazırlanması tələb olunur.

10. İdarəetmənin təşkilati mexanizminin təkmilləşdirilməsi üçün işçilərin və müvafiq xidmətlərin funksiyalarının səmərəliliyi təyin edilməli; idarəetmədə demokratikləşdirmənin və kollektivin özünü idarəetmədə rolu qaldırılmalı; işdə əməyin maddi və mənəvi həvəsləndirilməsi, menecmentin yeni metodları tətbiq edilməlidir.

11. Yeni qəbul edilmiş «Kənd Təsərrüfatı Kooperasiyası haqqında» Qanuna uygun olaraq kənd təsərrüfatında kooperasiyanın təşkilati mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərinə çevikliyin artırılmasını; xidmət xərclərinin subsidiyalaşdırılmasını; çoxpilləli kənd təsərrüfatı kooperasiyasının təşkilati sisteminin formalaşdırılmasını; istehsalçıların kənd təsərrüfatı kooperativlərində birləşməsini; vergi rejiminin və kreditləşmənin təkmilləşdirilməsini aid etmək olar.

13. Kooperasiya sistemində idarəetmənin ayrı-ayrı elementləri və səviyyələri arasında funksiyalar dürüst müəyyənləşdirilməlidir. Burada hesab təminatı, hər bir sahəyə edilən maliyyə dəstəyi, kadr hazırlığı, dövlət və hökumət orqanları ilə qarşılıqlı hərəkət, daxili və xarici nəzarət kimi məsələlər öz əksini tapmalıdır. Odur ki, müasir bazar münasibətlərinin məqsədli digər istehsal və istehlak kooperasiyanın inkişafının optimal modelləri verilir. Təklif olunan kooperasiya idarəçiliyinin bazar tipli modellərinin praktiki həlli kəndin iqtisadi və sosial dəyişikliklərinin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün şərait yaratmış olar.

14.Kooperativlərin işinin səmərəlilik səviyyəinin qaldırılması üçün istehsalın kateqoriyasından və təşkilati-iqtisadi münasibətlərin təkmilləşdirilməsindən, elmi-texniki nailiyyətlərin mənimsənilməsindən, istehsal texnologiyalarının təkmilləşdirilməsindən, təsərrüfat hesabının tətbiqindən istifadə edilməldir.

**Dissertasiya işinin əsas müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Azərbaycanda kooperasiyanın qanunvericilik bazasının təkmilləşdirilməsi və dövlət siyasəti. «Kooperasiya» elmi- nəzəri jurnal, «Kooperasiya» nəşriyyatı, Bakı: 2012, № 4(27) . s. 32 – 37.

2. Kooperasiyanın əslinin yaradılması və onun hüquqi bazasını yeniləşdirilməsi zəruriliyi. Azərbaycan aqrar elmi, «Tərəqqi» nəşriyyatı, Bakı: 2013. №4. s.141-144.

3. Azərbaycanda kənd təsərrüfatı istehsal kooperasiyasının formalaşmasında xarici təcrübədən istifadəsinin zəruriliyi və mümkünlüyü barədə. Audit, «Biznes Universiteti» nəşriyyatı, Bakı: 2014, № 1(32). s. 65 - 69.

4. Xaricdə kooperasiyanın inkişafının əsas təmayülləri və dövlət tənzimlənməsi. «Kooperasiya» elmi-praktiki jurnal, «Kooperasiya» nəşriyyatı, Bakı: 2014, №1(32) s. 10 – 18.

5. Xaricdə kooperasiyanın inkişafının müasir istiqamətləri. 2013 - cü ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş elmi-tədqiqat işlərin yekunlarına həsr edilmiş elmi– praktiki konfransın tezisləri, Bakı: «İqtisad Universiteti» nəşriyyatı, 2014. s. 349-351.

6. Kooperasiyanın təşkilinin müasir təşkilati modellərinin formalaşdırılması və idarə edilməsi. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91 illik yubileyinə həsr olunmuş «Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri» Beynəlxalq elmi-praktiki konfransın materialları, 5-6 may. «Biznes Universiteti» nəşriyyatı, Bakı: 2014. s. 401-408.

7. Müasir şəraitdə kooperasiyanın sosial-iqtisadi əhəmiyyəti və inkişafının zəruriliyi. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. // Elmi əsərlər, № 4, 2014, s. 31 -36.

8. Kooperasiyanın mexanizminin təşkilatı-iqtisadi əsasları və idarəçiliyinin təkmilləşdirilməsi. Azərbaycan Kooperasiya Universitetinin 50 illik Yubileyinə həsr edilmiş «Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı» beynəlxalq elmi-praktiki konfransın materialları, 22 noyabr, «Kooperasiya» nəşriyyatı, Bakı, 2015, s.171 -177.

9. Развитие новых форм кооперации в АПК Азербайджана в современных условиях.Науковий Вісник №1(69), 4.2, січень 2015. Серия «Економічні науки» Полтовського універстету економіки і торгівлі, с.190–196.

**Алекберов Ровшан Эльмидар оглу**

# Р ЕЗ Ю М Е

## Совершенствование организационных механизмов кооперации в современных условиях

Зарождение рыночных отношений в аграраном секторе экономики Азербайджана, изменение его среды, формирование производственной и социальной инфраструктуры обуславливает актуальность темы, открывает новые возможности для развития сельскохозяйственной кооперации в различных хозяйственных субектах, показывает его возросщую роль в экономике страны.

Диссертация состоит из введения, трех глав и выводов, включает 27 таблиц, 8 рисунков, 2 схемы, списка использованной литературы из 143 наименований и изложена на 159 страницах.

В первой главе, посвященной анализу места и роли кооперации в аграрном секторе экономики Азербайджана, раскрыты внутренний феномен кооперации, теоретические и исторические основы, социально-экономический потенциал, а так же методология и современные методы организации и управления кооперацией, изучен зарубежный опыт в этой области. Изложены всесторонние подходы к расширению возможностей внутренного рынка, внедрению в нем перспективных организационных механизмов.

Во второй главе диссертации проанализировано фактическое состояние и тенденции развития организационных механизмов кооперации в Азербайджане, отражены территориальные, отрас-левые и функциональные формы, структурные преобразования в аграрном секторе и их влияние на развитие сельскохозяйственной кооперации. Далее обоснованы основные факторы организационных механизмов, определяющие развитие кооперативных форм хозяйствования.

В третьей главе диссертации исследованы основные направления по совершенствованию организационных механизмов кооперации в стране. Научно обоснованными аргументами представлены новые механизмы и принципы государственного регулирования.

В заключении изложены выводы и рекомендации автора по исследуемой проблеме.

**Alakbarov Rovshan Elmidar**

## S U M M A R Y

### The improvement of cooperation's organization mechanisms in modern circumstances

The actuality of the subject deals with the formation of production and social infrastructure of market relations. The changing of its conditions in Azerbaijan eco nomy's agrarian sector opens new opportunities for the growth of agricultural co –operation in different organizational forms and brings forward the growth problems of cooperation organizational mechanisms, shows its importance in the country's economy.

The dissertation consists of an introduction, 3 chapters, a summary,a list of literature in 143 names.The work contains 159 printed pages, 27 schedules, 8 pictures, 2 schemes.

In the I chapter which deals with the investigating of the place and role of co -operation in the agrarian sector of Azerbaijan Economy the internal phenomenon, its theoretical and historical basis, social-economical potential are unfolded,as well as the methodology and modern methods of cooperation's organization and its ruling are looked through.Foreign experience is studied, home cooperation mar- ket opportunities, its application of organization mechanisms are thoroughly are attituded.

In the II chapter of the dissertation the current situation of cooperation,its growth trends of institutional mechanisms are analized, the place, area and functional forms of cooperation organization are looked through, the influence of structural changes in agrarian sector to the cooperation growth ate explained, the main factors organization mechanisms are brought which define exactly the strategic directions of cooperation.

In the III chapter the main directions of cooperation's improvement mecha nisms have been researched. The new mechanisms and principles of government regulation are given scientifically- based. In this case the necessaty to improve the organizational and legal basis of cooperation from the view of modern demands are put forward.

In the end the author's conclusions and recommendations for the applied prob lems are given.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЛЕКБЕРОВ РОВШАН ЭЛЬМИДАР оглу**

# СОВЕРШАНСТВОВАНИЕ ОРГАНИЗАЦИОННЫХ МЕХАНИЗМОВ КООПЕРАЦИИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

**5308.01 - «Общая экономика»**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку - 2017**

3) büdcə vəsaitləri hesabına kənd təsərrüfatı kooperativlərinə verilən dövlət yardım tədbirlərinin səmərəsinin yüksəldilməsi üzrə təkliflər hazırlamaq;

4) istehsal infrastrukturunun, kənd təsərrüfatı məhsullarının, xammalın və ərzağın tədarükü və satışı üzrə obyektlərin yaradılması üçün müvafiq orqanlarla birlikdə 2017-ci ildə maliyyə həcminin artırılması sahəsində tədbirlər görmək;